# Milli-mənəvi dəyərlərin tələbə gənclərin şəxsiyyətinin formalaşmasında yeri

**Aytən Aslanova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** AzLoq.Academy@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d. S.N. Heydərova,
psixol.ü.f.d. Ü.A. Əfəndiyeva

**Açar sözlər:** milli-mənəvi dəyərlər, tələbə gənclər, şəxsiyyətin formalaşdırılması, mənəvi inkişafın psixoloji xüsusiyyətləri, xalqımızın ictimai inkişafı

**Ключевые слова:** национально-духовные ценности, студенческая молодежь, развитие личности, психологические особенности духовного развития, социальное развитие наших людей

**Key words:** national-spiritual values, student youth, personality development, psychological features of spiritual development, social development of our people

Mənəvi keyfiyyətlərin təşəkkülü şəxsiyyətin psixoloji statusunun göstəricilərindən biri olub onun formalaşmasını şərtləndirir. Gənclərdə mənəvi dəyərlərin təzahürü, onun formalaşdırılması, hər şeydən əvvəl, həmin gənclərin yaşadığı cəmiyyətdə mövcud olan normativ qaydaların, etalonların hansı səviyyədə olmasından çox asılıdır. Bu baxımdan son illərdə respublikanın milli, mənəvi, sosial, iqtisadi həyatında ciddi dəyişikliklər baş vermişdir.

"Bu gün gənclər şəxsiyyət kimi elə formalaşmalıdır ki, həlli vacib olan məsələlərin öhdəsindən şərəflə gələ bilsinlər. Bu sosial iqtisadi, milli, mənəvi dəyişikliklər birinci növbədə, gənclərin fəaliyyət sahələrinin mahiyyətini, onların mənəvi inkişaf səviyyəsini, təfəkkür tərzini, bilik və maraq dairəsini müəyyənləşdirməyi tələb edir" (5, 53).

"Azərbaycan gənclərinin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi və müstəqilliyimizin şüurlu dərk edilməsi və dəyərləndirilməsi, onlar tərəfindən innovativ düşüncə və rəqabətədavamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqini zəruri edir. Gənclər arasında yaradıcılığı, intellektual inkişafı stimullaşdırmaq və əqli mülkiyyətin yüksək dəyər olduğunu təbliğ etmək, ekoloji tarazlığın pozulması və sağlam təbii mühitin məhdudlaşması ilə mübarizədə yeni təsirli formaların tətbiqində gənc nəslin fəal iştirakını dəstəkləmək mühüm əhəmiyyət daşıyır" (1).

Milli-mənəvi dəyərlər geniş anlayışdır. Buraya sosial, siyasi, fərdi, qrup, ailə, maddi, mənəvi və digərlərini aid etmək olar. Azərbaycan psixoloqları ən çox milli-mənəvi dəyərlərin tədqiqinə yer vermişlər. Buraya etnik adət-ənənələr, stereotip və yönümlər, milli xarakter, hissi yanaşmalar, etnik özünüdərketmə və özünüqiymətləndirmə, milli ləyaqət, vətənpərvərlik, milli qeyrət, mənlik şüuru və s. bəşəri keyfiyyətlər daxildir. Elə buna görə də hər bir etnos, hər bir xalq özünəməxsus etnik psixoloji xüsusiyyətlərə malik olur və həmin xüsusiyyətlər həmin adamların rəftar və davranış tərzində, adət-ənənələrində, münasibətlər sistemində, sərvət meyllərində özünü büruzə verir.

Azərbaycan milli-mənəvi dəyərlərinin psixoloji tədqiq və təbliğində milli ideologiya, azərbaycançılıq ideyası, milli özünüdərk fenomenləri vəhdət təşkil edir. Hər hansı bir xalq, o cümlədən Azərbaycan xalqı böyük sürətlə yayılan qloballaşma şəraitində yaşamaq və öz qüdrətini saxlamaq üçün milli qürur və ləyaqətini, milli mənliyini, adət-ənənələrini,

azərbaycançılıq ənənələrini mühafizə etməlidir. Öz milli mənliyini qorumayan, öz soykökündən ayrılan hər bir xalq kölədir və gec-tez məhvə məhkumdur. Ulu öndərimiz Heydər Əliyev bütün fəaliyyəti ərzində bu azərbaycançılıq ideyasının təbliğçisi və icraçısı olmuşdur. Onun: "Biz gərək milli mənliyimizi həmişə yüksək saxlayaq. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə milli mənliyimizi gərək itirməyək", — deməsi dediklərimizə bariz nümunədir.

"Xalqımızın özünəməxsus milli-mənəvi dəyərləri, maarifə, mədəniyyətə, pedaqogikaya, psixologiyaya aid fikirləri, ilk növbədə, şifahi xalq ədəbiyyatı nümunələrində (nağıllarda, atalar sözlərində, bayatılarda, laylalarda, alqış və qarğışlarda, yanıltmaclarda, tapmacalarda, hikmətli ifadələrdə, adət-ənənələrdə, etnik kökümüzdə, qaya və daş rəsmlərində, klassiklərimizin yaradıcılığında və sair) öz əksini tapmışdır. Psixoloqlarımız hər hansı bir problemi tədqiq edərkən, birinci növbədə, onu bu milli mədəniyyətimizlə, adət-ənənələrimizlə, etnik milli hisslərlə əlaqələndirmiş və həmişə o tükənməz mənbədən bəhrələnmişlər. Təbii ki, bu da respublikamızda psixologiyanın nəzəri-tarixi problemlərinin araşdırılmasında böyük rol oynamışdır" (6, 12).

Biz bu gün milli-mənəvi dəyərlərimizi özündə əks etdirən ədəb və mərifət xəzinəsindən daha çox bəhrələnməli və onları tədqiq edərək gənc nəslə çatdırmalıyıq. Bunlar bir tərəfdən milli-mənəvi dəyərlərə olan hörmət və münasibətimizi ifadə edər, digər tərəfdən gənc nəslin öz soy-kökünə bağlanmasına, onlarda milli ləyaqət, qürur hisslərinin formalaşmasında əhəmiyyətli rol oynayar. Bütün bunları nəzərə alaraq, psixoloqlarımız yaradıcılıqlarında tədqiq etdikləri problemlərdən asılı olmayaraq, həmişə bu sahəyə də ciddi fikir vermiş və bu tükənməz xəzinədən bəhrələnmişlər.

Milli-mənəvi dəyərlərin öyrənilməsi psixologiyanın nəzəri-tarixi problemlərinin araşdırılması və eləcə də gənc nəslin təlim-tərbiyəsini müasir tələblərə uyğun şəkildə qurulması baxımından da çox böyük əhəmiyyətə malikdir.

Azərbaycan psixoloqları şəxsiyyətin formalaşmasında milli-mənəvi dəyərlərin əhəmiyyətini həmişə diqqət mərkəzində saxlamış və maraqlı tövsiyələr irəli sürmüşlər.

Azərbaycan psixoloqları tədqiqatlarında bu sahəyə lazımi diqqət yetirmişlər. M. Məhərrəmovun, Ə.Bayramovun, Ə.Əlizadənin, Ə.Həşimovun, Q.Əzimlinin, Ə.Baxşəliyevin, R.Əliyevin, S.Heydərovanın, N.Rzayevanın, İ.Sultanovanın, U.Şiriyevanın, M.İsamayılovanın, Q. Rəhimova, L. Əmrahlının tədqiqatlarını buna misal göstərmək olar.

Şəxsiyyətin mühüm keyfiyyətlərindən biri özünüdərketmə və özünüqiymətləndirmədir. İnsan özünü dərk etmədən, özünü düzgün qiymətləndirmədən şəxsiyyətə çevrilə bilməz. İnsan özünü və ya başqalarını qavradıqca özünü onlarla müqayisə edir, özünə kənardan nəzər salır, özünü təhlil edir. Şəxsiyyətin özünü dərk etməsi və düzgün qiymətləndirməsi isə onun elmi dünyagörüşündən, əqidə və inamından, keçdiyi həyat yolundan, tutduğu mövqedən, maraq və meylindən asılıdır. Tələbənin özünə verdiyi qiymət, bir çox halda mühitin ona verdiyi qiymətə uyğundur. Tələbə bir çox halda davranışını, rəftarını başqalarının nöqteyi-nəzəri əsasında qiymətləndirir tələbəlik dövründə belə (yeniyetmə yaşından fərqli olaraq) mühitin ona verdiyi qiymətin, bir qədər yeni formada, yeni məzmunda, yeni təzahürlərindən ibarətdir. Şəxsiyyətin inkişafında sərvət meyli və mənəvi idealın böyük rolu vardır. Sərvət meyli insanın tələbatlarının ödənilməsi ilə bağlı olan, ona kömək göstərən maddi və mənəvi sərvətlərə, ideallar məcmuəsinə nisbətən davamlı və ictimai cəhətdən şərtlənmiş münasibətidir. İdeal isə ali mənəvi sərvət rolunu oynayaraq hələ həyata keçməmiş olan, lakin

özünün həyata keçməsini tələb edən imkan rolunu oynayaraq sərvət meylinin mühüm göstəricisi kimi çıxış edir.

Prof. Ə. Bayramov həmin amilləri şəxsiyyətin peşə keyfiyyətləri ilə əlaqələndirir, "Tələbələrdə zəruri sərvət meyli və mənəvi ideallarn təşəkkülü mürəkkəb proses olub, ali məktəbdə nəinki tələbələr arasındakı, eləcə də müəllim-tələbə, müəllim-müəllim sistemindəki qarşılıqlı münasibətlərin, ali məktəbin tərbiyəvi ənənələri və s. kimi amillərdən asılı olaraq formalaşır" (2, 63).

Azərbaycan xalqına xas olan sosial-psixoloji xüsusiyyətlər insan cəmiyyəti yaranandan bu günə qədər alimlərin, pedaqoq və filosofların diqqət mərkəzindədir. Psixika və psixologiya haqqında millətin ilk düşüncələri, dünyanın yaranışı, bu barədə ilk mifik təsəvvürlər milli özünüdərk problemlərinin tədqiqində əsas faktorlardır

Azərbaycan xalqına xas olan psixoloji keyfiyyətlər, ulu əcdadlarımızın deyimləri prof. B. Əliyev və dos. R. Cabbarovun "Təhsildə şəxsiyyət problemi" əsərində faktlarla şərh olunur, milli psixologiyaya dair bir sıra açıqlamalar verilir. Azərbaycanın mifik təfəkkür qaynaqlarında insanların təbiət və cəmiyyət haqqında yaratdıqları ilk təsəvvürlər (xeyirxahlıq, bədxahlıq, bədxah ruhlar, dünyanın əmələ gəlməsi, sehr və ovsunlar, yüksək peşəkarlıqla şərh olunur. Bu materiallar Azərbaycan xalqının psixoloji görüşləri haqqında geniş təsəvvürlər yaradır (3, 8-24) .

Azərbaycan psixoloqları tədqiqatlarında milli-mənəvi dəyərlərimizin daşıyıcıları olan həmin mütəfəkkirlərin yaradıcılığına dönə-dönə müraciət etmiş, həmin qaynaqlardan bəhrələnmiş və gənc nəslin təlim-tərbiyəsi üçün xarakterik olan psixoloji keyfiyyətləri ümumiləşdirərək müəllimlərə, valideyn və tərbiyəçilərə çatdırmışlar.

Milli-mənəvi dəyərlərimizin sosial-psixoloji baxımdan qorunub saxlanılmasında bir sıra mədəni amillərin, o cümlədən ailə mədəniyyətinin özünəməxsus rolu vardır. Əsrlər boyu xalqımızın təfəkkür sürgəcindən keçərək zamanəmizə qədər gəlib çıxan adət-ənənələrimiz, ata-anaya, böyük və kiçiklərə hörmət, qadın şəxsiyyətinə hədsiz məhəbbət məhz ailədə öz dayaq nöqtəsini tapmışdır. Bu baxımdan Azərbaycan xalq yaradıcılığında öz əksini tapan adətlərin, illər boyu möhkəmlənmiş ailə stereotiplərinin, ümumilikdə milli-mənəvi dəyərlərin, orada öz əksini tapan təlim, tərbiyə psixologiyasına aid ideyaların qorunub saxlanılmasında, təbliğ və təqdimatında, qiymətləndirilməsində, aydın dərk olunmasında, əməli fəaliyyətimizdə istifadə olunmasında ailənin çox böyük rolu vardır.

**Məqalənin aktuallığı.** Məqalə tələbə gənclərin şəxsiyyətinin formalaşmasında milli-mənəvi dəyərlərin rolunun araşdırılması baxımından aktual əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə Azərbaycan milli-mənəvi dəyərlərinin psixoloji tədqiq və təbliğində əsas istiqamətləri araşdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı. Bakı, 2017, 15 sentyabr.
2. Bayramov Ə.S. İnqilabçı demokrat M.F.Axundovun yaradıcılığında psixoloji istiqamətlər. Psixoloji etüdlər. Bakı: BDU-nun nəşri, 1989.
3. Əliyev B. H., Cabbarov R. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008.
4. Əlizadə Ə.Ə. Azərbaycan güzəran psixologiyası məsələləri. Bakı: ADPU, 1994.
5. Mustafayev M.H. Gənclərin mənəvi inkişafının bəzi sosial-psixoloji cəhətləri: Psix. elm. nam. dis. Bakı, 2005.

6. Rəhimova Q.V. Azərbaycan psixoloqlarının tədqiqatlarında milli-mənəvi dəyərlərimiz problemi və onun müasir vəziyyəti: Psix. elm. nam. dis. Bakı, 2011.

**А. Асланова**

## Место национально-духовных ценностей в формировании студенческой молодежной личности

### Резюме

В настоящее время роль молодежи постоянно растёт. Таким образом, важным положительными факторами участия в молодого поколения общества являются: духовное развитие и обогащение подрастающего поколения. Превращение их активных участников процесса всестороннего общества, использование их интеллектуального, нравственного, духовного потенциала для решения задач сохранения социальной стабильности. Работа по сохранению и развитию национальных и общечеловеческих ценностей, языка, культуры, обрядов, обычаев, традиции народа; воспитание молодежи в духе единства всех граждан.

**A. Aslanova**

## Place of national and spiritual values in the formation of the student's youth personality

### Summary

Now the role of youth is constantly growing. Thus, important positive factors of participation in the younger generation of society are: spiritual development and enrichment of the growing generation. The transformation of their active participants in the process of a comprehensive society, the use of their intellectual, moral, spiritual potential for solving the problems of preserving social stability. Work on the preservation and development of national and universal values, language, culture, rituals, customs, traditions of the people; the education of youth in the spirit of the unity of all citizens.

**Redaksiyaya daxil olub:** 12.01.2017